# HSŞ hesabatlığının "Azərbaycan standartı"na dair bəzi təkliflər

Sabit Bağırov,

Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu

# Nələrdən söhbət ediləcək?

1. Hasilat Sənayesində Şəffaflıq standartına nəyə görə ehtiyac var?
2. Standartın hüquqi statusu necə ola bilər?
3. Azərbaycan Standartının Beynəlxalq MHŞT Standartına yaxınlığına çalışmalıyıqmı?
4. Azərbaycan Standartında hansı tələblər əksini tapmalıdır?
5. Azərbaycan Standartında tövsiyə edilən nələr ola bilər?
6. Azərbaycan hökumətinin bu məsələyə münasibəti necə görünür?
7. Nəticə

# Hasilat Sənayesində Şəffaflıq standartına nəyə görə ehtiyac var?

1. Hasilat Sənayesində Şəffaflıq prosesinə müxtəlif statusda (dövlət qurumları, hasilat sənayesində fəaliyyət göstərən şirkətlər, vətəndaş cəmiyyəti qurumları) olan onlarla ölkə rezidentləri cəlb edilib. Bundan başqa, prosesin yüksək əhəmiyyəti onunla əlaqəlidir ki, bu prosesdə çox böyük gəlirlərin şəffaflığı təmin edilməlidir. Təbii ki, bu proses müəyyən **qanunvricilik aktı ilə tənzimlənməlidir**. Hazırda bu proses Azərbaycan Respublikası Prezidentinin «Hasilat sənayesində şəffaflığın və hesabatlılığın artırılması ilə bağlı əlavə tədbirlər haqqında» 5 aprel 2017-ci tarixli Fərmanı ilə tənzimlənir. Bu qanunvericilik aktının 4-cü abzasında deyilir ki: «Azərbaycan bu və ya digər beynəlxalq təşəbbüsə üzv olub-olmamasından asılı olmayaraq, hasilat sənayesində şəffaflıq və hesabatlılıq üzrə bütün beynəlxalq səyləri dəstəkləyir və **beynəlxalq standartların tətbiqini davam etdirmək əzmindədir**». Fərmanın 1-ci bəndində isə qeyd edilir ki, «**Azərbaycan Respublikasında hasilat sənayesində şəffaflıq və hesabatlılıq standartlarının** tətbiqi aşağıda göstərilmiş beynəlxalq prinsiplər əsasında davam etdirilsin...;

# Hasilat Sənayesində Şəffaflıq standartına nəyə görə ehtiyac var?

2. Ümumiyyətlə, Fərmanda Standart sözü 5 dəfə işlədilir. Bu da HSŞ prosesini tənzimləyən xüsusi Standarta ehtiyacı göstərir, çünki istinad edilən bəzi standartlar hələ ki, tərtib edilməyib. Məsələn 1.7 bəndində qeyd edilən «ölkənin maliyyə şəffaflığı standartı».
3. Daha bir qanunvericilik aktı olan «Azərbaycan Respublikasının Hasilat Sənayesində Şəffaflıq üzrə Komissiyasının Əsasnaməsi»nin (Nazirlər Kabinetinin 2018-ci il 6 iyun tarixli qərarı ilə təsdiq edilmişdir) 1.4 bəndində «...hasilat sənayesində şəffaflıq və hesabatlılıq standartlarının tətbiqində...» ifadəsi var. Hansı standartlardan söhbət gedir?;

# Hasilat Sənayesində Şəffaflıq standartına nəyə görə ehtiyac var?

4. Hökumət Komissiyasının Əsasnaməsində vətəndaş cəmiyyəti təmsilçiləri ilə yanaşı müstəqil ekspertlərdən söhbət gedir. Müstəqil ekspertlərin seçimi prinsipləri burada qeyd edilmir. Bu problemin də həllini Yeni Standart təmin edə bilər;
5. Hazırkı proses beynəlxalq MHŞT Standartının əsas tələblərinə cavab versə də, tələblərin bəziləri təmin edilmir. Məsələn Çoxtərəfli Qrupun vacibliyi. Digər tərəfdən, beynəlxalq Standartın bəzi tənzimləmələri bir çox ölkənin iştirakına hesablanıb;

# Hasilat Sənayesində Şəffaflıq standartına nəyə görə ehtiyac var?

6. Qanunvericilik gücünə malik olan Standart prosesin bütün iştirakçıları (Hökumət Komissiyası, şirkətlər, vətəndaş cəmiyyəti təmsilçiləri və auditor) üçün aydın «oyun qaydaları» ola bilər;
7. Azərbaycan Standartını Beynəlxalq MHŞT Standartı ilə müqaisə etmək və Azərbaycanda hasilat sənayesində şəffaflığın beynəlxalq tələblərə uyğunluğunu qiymətləndirmək mümkün olacaq;

# Standartın hüquqi statusu necə ola bilər?

Bir neçə variant mümkündür:

- Qanun;
- Prezidentin Fərmanı ilə təsdiqlənən Standart adlanan qaydalar toplusu;
- Prezidentin Fərmanı ilə təsdiqlənən Əsasnamə;
- Prezidentin Fərmanı ilə təsdiqlənən Qaydalar;
- Nazirlər Kabineti tərəfindən təsdiqlənən Qaydalar;
- Digər

# Azərbaycan Standartının Beynəlxalq MHŞT Standartına yaxınlığına çalışmalıyıqmı?

Bəli, çünki bunun nəticəsində:

- gələcəkdə Azərbaycanın MHŞT-yə qayıtması mümkün olacaq;
- Azərbaycanda həyata keçirilən HSŞ proseslərinə beynəlxalq qurumların (o cümlədən maliyyə) etimadı artacaq;
- Azərbaycanda da, HSŞ prosesinin beynəlxalq standarta yaxın olması vətəndaş cəmiyyətində məmnunluqla qarşılanacaq;

# Standartın içindəkiləri: MHŞT və HSŞ-Azərbaycan

| 2016 MHŞT Standartı | Azərbaycan HSŞ Standartı layihəsi |
|---|---|
| Ön söz (Kler Şort, MHŞT sədri) | Ön söz (Şahmar Mövsumov, Hökumət Komis. Sədri) |
| Giriş (Standartın qısa icmalı) | Giriş (Standartın qısa icmalı) |
| MHŞT Prinsipləri (2003-cü ildə Londonda keçirilən MHŞT konfransında qəbul olunub) | HSŞ Prinsipləri (Azərbaycan Respublikası Prezidentinin 5 aprel 2017-ci il tarixli Fərmanında qeyd edilən) və ya MHŞT prinsipləri (olduğu kimi və ya kiçik redaktə ilə («biz» sözünün Azərbaycan sözü ilə əvəz etməklə)) |
| MHŞT-yə qoşulma | HSŞ prosesinə yeni şirkətlərin daxil olması proseduru |

# Standartın içindəkiləri: MHŞT və HSŞ-Azərbaycan

| 2016 MHŞT Standartı | Azərbaycan HSŞ Standartı |
|---|---|
| 1-ci Tələb: Çoxtərəfli Qrup Tərəfindən nəzarət<br>- Hökumətin iştirakı;<br>- Şirkətlərin iştirakı;<br>- Vətəndaş cəmiyyətinin iştirakı;<br>- Çoxtərəfli qrupun rolu;<br>- İş Planları, MHŞT Hesabatları və İllik fəaliyyət hesabatlarının təsdiqi;<br>- Daxili idarəetmə üzrə qayda və prosedurlar | MHŞT-nin 1-ci Tələbi bəzi dəqiqləşdirmələrlə HSŞ-Azərbaycan Standartında təkrar oluna bilər |

# Standartın içindəkiləri: MHŞT və HSŞ-Azərbaycan

| 2016 MHŞT Standartı | Azərbaycan HSŞ Standartı |
| --- | --- |
| 2-ci Tələb: Hüquqi və institusional əsaslar, o cümlədən müqavilələrin və lisenziyaların bölüşdürülməsi<br><br>- Hüquqi əsas və maliyyə rejimi;<br>- Lisenziyaların təyinatı;<br>- Lisenziyalar reyestri;<br>- Müqavilələr;<br>- Benefisiar sahiblik;<br>- Dövlətin iştirakı | MHŞT-nin 2-ci Tələbi bəzi dəyişikliklərlə HSŞ-Azərbaycan Standartında təkrar oluna bilər.<br><br>Təklif edilən dəyişikliklər:<br><br>- Hasilat sənayesində fəaliyyət göstərmək hüququnun əldə edilməsi prosedurları daha ətraflı qeyd edilməlidir;<br>- Müqavilələrin açıqlanması icbari olmalıdır;<br>- Benefisiar mülkiyyətçilərin açıqlanmasına dair konkret tarix qeyd edilməlidir; |

# Standartın içindəkiləri: MHŞT və HSŞ-Azərbaycan

| 2016 MHŞT Standartı | Azərbaycan HSŞ Standartı |
|---|---|
| 3-cü Tələb: Kəşfiyyat və hasilat<br>- Kəşfiyyat;<br>- Hasilat;<br>- İxracat | MHŞT-nin 3-cü Tələbi bəzi dəqiqləşdirmələrlə HSŞ-Azərbaycan Standartında təkrar oluna bilər |

# Standartın içindəkiləri: MHŞT və HSŞ-Azərbaycan

| 2016 MHŞT Standartı | Azərbaycan HSŞ Standartı |
|---|---|
| 4-cü Tələb: Gəlirlərin toplanması<br>- Vergilərin və gəlirlərin hərtərəfli açıqlanması;<br>- Dövlət hasilat payının satılması və ya digər natura formasında toplanan gəlirlər;<br>- İnfrastruktur təchizatı və barter razılaşmaları;<br>- Nəqletmədən gəlirlər;<br>- Dövlət təşkilatları ilə əlaqədar tranzaksiyalar;<br>- Submilli ödənişlər;<br>- Fərdiləşdirmə səviyyəsi;<br>- Məlumatların vaxtında təmin edilməsi;<br>- Məlumatın keyfiyyəti | MHŞT-nin 4-cü Tələbi bəzi dəqiqləşdirmələrlə HSŞ-Azərbaycan Standartında təkrar oluna bilər.<br>Submilli ödənişlər bölməsi çıxarılmalıdır. |

# Standartın içindəkiləri: MHŞT və HSŞ-Azərbaycan

| 2016 MHŞT Standartı | Azərbaycan HSŞ Standartı |
| --- | --- |
| 5-ci Tələb: Gəlirlərin bölüşdürülməsi<br><br>- Mineral ehtiyatlarının hasilatı sənayesi sahəsindən əldə edilmiş gəlirlərin bölüşdürülməsi;<br><br>- Submilli köçürmələr;<br><br>- Gəlirlərin idarə edilməsi və xərclər | MHŞT-nin 5-ci Tələbi bəzi dəqiqləşdirmələrlə HSŞ-Azərbaycan Standartında təkrar oluna bilər.<br><br>Submilli köçürmələr bölməsi çıxarılmalıdır. |

# Standartın içindəkiləri: MHŞT və HSŞ-Azərbaycan

| 2016 MHŞT Standartı | Azərbaycan HSŞ Standartı |
|---|---|
| 6-cı Tələb: Sosial və iqtisadi xərclər<br><br>- Hasilat şirkətlərinin sosial xərcləri;<br><br>- Kvazi-fiskal xərclər;<br><br>- Hasilat sektorunun iqtisadiyyata töhvəsi; | MHŞT-nin 6-cı Tələbi bəzi dəqiqləşdirmələrlə HSŞ-Azərbaycan Standartında təkrar oluna bilər |

# Standartın içindəkiləri: MHŞT və HSŞ-Azərbaycan

| 2016 MHŞT Standartı | Azərbaycan HSŞ Standartı |
|---|---|
| 7-ci Tələb: Nəticələr və təsir<br>- İctimai müzakirə;<br>- Məlumatları əldə etmək imkanı;<br>- MHŞT hesabatlarındakı uyğunsuzluqlar və müvafiq tövsiyələr;<br>- MHŞT-nin tətbiqinin nəticə və təsirlərinin nəzərdən keçirilməsi; | MHŞT-nin 7-ci Tələbi bəzi dəqiqləşdirmələrlə HSŞ-Azərbaycan Standartında təkrar oluna bilər |

# Standartın içindəkiləri: MHŞT və HSŞ-Azərbaycan

| 2016 MHŞT Standartı | Azərbaycan HSŞ Standartı |
|---|---|
| Tətbiq edən ölkələr üçün uyğunluq şərtləri və hesabatların son tarixləri<br>- Uyğunlaşdırılmış tətbiq;<br>- MHŞT hesabatları üçün son tarixlər;<br>- MHŞT Qymətləndirməsinin son tarixləri və onun nəticələri;<br>- İllik tərəqqi hesabatlarının son tarixləri;<br>- Vaxtın uzadılması;<br>- Üzvlüyün müvəqqəti dayandırılması;<br>- Siyahıdan çıxarma;<br>- Apelyasiyalar | MHŞT Standartının bu bölməsi üzv ölkələrdəki tətbiqlə əlaqəli vəziyyətin qiymətləndirilməsini və digər müvafiq məsələləri tənzimləyir.<br>HSŞ-Azərbaycan Standartında bu bölmə başqa tərzdə və məğzdə təqdim edilməlidir. Bölmədə aşağıdakı məsələlərin tənzimlənməsi vacibdir:<br>- HSŞ hesabatları üçün son tarixlər;<br>- İllik tərəqqi hesabatlarının son tarixləri;<br>- Vaxtın uzadılması;<br>- HSŞ-nin qiymətləndirilməsi tarixi; |

# Standartın içindəkiləri: MHŞT və HSŞ-Azərbaycan

| 2016 MHŞT Standartı | Azərbaycan HSŞ Standartı |
|---|---|
| Qiymətləndirmənin icmalı<br><br>- Qiymətləndirmənin məqsədləri;<br><br>- Qiymətləndirmənin metodologiyası;<br><br>- Qiymətləndirmə proseduru; | Monitorinq və Qiymətləndirmə<br><br>- Monitorinq və Qiymətləndirmənin məqsədləri;<br><br>- Monitorinq metodologiyası;<br><br>- Qiymətləndirmə metodologiyası; |

# Standartın içindəkiləri: MHŞT və HSŞ-Azərbaycan

| 2016 MHŞT Standartı | Azərbaycan HSŞ Standartı |
|---|---|
| 5-ci Protokol: Vətəndaş cəmiyyətinin iştirakı | |
| 1. Giriş; | 1. Giriş. Bu bölmə saxlanmalı, bəzi dəqiqləşdirmələrlə |
| 2. Vətəndaş cəmiyyəti üzrə müddəalara MHŞT-nin şərhi; | |
| 2.1. İfadə etmə: Vətəndaş cəmiyyətinin nümayəndələri MHŞT prosesi ilə bağlı ictimai müzakirədə iştirak edə bilər və məhdudiyyətsiz, məcburiyyət və repressiyaya məruz qalmaqdan MHŞT prosesi haqqında öz fikirlərini ifadə edə bilərlər; | 2.1. İfadə azadlığı. Bu bölmə saxlanmalı, bəzi dəqiqləşdirmələrlə |
| 2.2. Fəaliyyət: Vətəndaş cəmiyyətinin üzvləri MHŞT prosesi ilə əlaqədar sərbəst şəkildə fəaliyyət göstərə bilirlər; | 2.2. VC quumlarının fəaliyyəti. Bu bölmə saxlanmalı, bəzi dəqiqləşdirmələrlə |

# Standartın içindəkiləri: MHŞT və HSŞ-Azərbaycan

| 2016 MHŞT Standartı | Azərbaycan HSŞ Standartı |
|---|---|
| Öncəki slaydın davamı:<br><br>2.3. Əməkdaşlıq: Vətəndaş cəmiyyəti nümayəndələri MHŞT prosesi ilə bağlı bir-biri ilə ünsiyyət və əməkdaşlıq qura bilirlər;<br><br>2.4. Cəlb olunma: Vətəndaş cəmiyyəti nümayəndələri tam, fəal və səmərəli şəkildə MHŞT prosesinin tərtibatı, tətbiqi, monitorinqi və qiymətləndirmə işlərinə cəlb oluna bilərlər; | 2.3. Əməkdaşlıq azadlığı. Bu bölmə saxlanmalı, bəzi dəqiqləşdirmələrlə<br><br>2.4. Cəlb olunma. Bu bölmə saxlanmalı, bəzi dəqiqləşdirmələrlə |

# Standartın içindəkiləri: MHŞT və HSŞ-Azərbaycan

| 2016 MHŞT Standartı | Azərbaycan HSŞ Standartı |
|---|---|
| Öncəki slaydın davamı:<br><br>2.5. İctimai qərar qəbul etmə imkanı: Vətəndaş cəmiyyəti nümayəndələri şəffaflıq və təbii resursların idarəetmə məsələləri barədə sərbəst danışa və MHŞT-nin ictimai müzakirələrinə öz töhvəsini verdiyinə əmin ola bilirlər; | 2.5. İctimai müzakirələr azadlığı. Bu bölmə saxlanmalı, bəzi dəqiqləşdirmələrlə |

# Standartın içindəkiləri: MHŞT və HSŞ-Azərbaycan

| 2016 MHŞT Standartı | Azərbaycan HSŞ Standartı |
|---|---|
| Öncəki slaydın davamı:<br><br>2.6. MHŞT prosesinə cəlb olunmuş Çoxtərəfli qrup və VCT-lərdən əldə edilən sənədlər, habelə müvafiq maraqlı tərəflərlə, o cümlədən (lakin bununla məhdudlaşmayaraq) Çoxtərəfli qrupun üzvləri ilə birbaşa məsləhətləşmələrin nəticələri yuxarıdakı sübutların toplanması zamanı nəzərə alınmalıdır. Kontekstual məqsədlər üçün, MHŞT üzrə İdarə Heyəti MHŞT-nin fəaliyyət göstərdiyi daha geniş mühiti nəzərə alacaqdır (məsələn, yuxarıdakı 2.1-2.5 bəndlərində qeyd edilmiş məsələlərə uyğun göstəricilər və ya ayrı növ qiymətləndirmələrə istinad edilməklə) | Bu bölməyə ehtiyac yoxdur |

# Standartın içindəkiləri: MHŞT və HSŞ-Azərbaycan

| 2016 MHŞT Standartı | Azərbaycan HSŞ Standartı |
|---|---|
| Öncəki slaydın davamı:<br><br>3. Vətəndaş cəmiyyəti nümayəndələri münasibətdə ad-hoc (xüsusi) məhdudiyyətlər | Bu bölməyə ehtiyac yoxdur |

# Standartın içindəkiləri: MHŞT və HSŞ-Azərbaycan

| 2016 MHŞT Standartı | Azərbaycan HSŞ Standartı |
|---|---|
| Açıq məlumat siyasəti | Bu bölmə saxlanmalı, bəzi dəqiqləşdirmələrlə |
| Rəhbərlik və İdarəetmə | Bu bölməyə ehtiyac yoxdur |
| Assosiasiyanın Nizamnaməsi | Bu bölməyə ehtiyac yoxdur |
| MHŞT-nin Aşkarlıq siyasəti | Bu bölmə saxlanmalı, bəzi dəqiqləşdirmələrlə |
| MHŞT Assosiasiyanın etik davranış kodeksi | Analoji bölmənin olması məqsədə uyğundur. 2016-cı ildə Azərbaycan Çoxtərəfli Qrupunda Etik davranış sənədi (Ə.Nuriyevin müəllifliyində) hazırlanmış və təsdiq edilmişdir |
| MHŞT Dairələrinə göstərişlər toplusunun layihəsi | Bu bölməyə ehtiyac yoxdur |

# Azərbaycan hökumətinin bu məsələyə münasibəti necə görünür?

2017-ci ilin noyabrında Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən elan edildiyi qrant müsabiqəsi mövzularına "HSŞ hesabatlığının "Azərbaycan standartı" layihəsinin hazırlanması" mövzusu da daxil edilmişdir:

http://www.cssn.gov.az/news.php?id=3114&lang=az

# Nəticə

Bütün yuxarıda qeyd edilənlər Azərbaycan Hasilat Sənayesində şəffaflığı təmin edən xüsusi Standarta ehtiyac olduğunu göstərir.

# TƏŞƏKKÜRLƏR!

Sabit Bağırov

bagirov.sabit@gmail.com

055-214-07-32